# 20 Yanvar hüzn və milli qürur günüdür



**Yanvarın 14-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında 20 Yanvar faciəsinin 26-cı ildönümü münasibətilə tədbir keçirilib.**

Tədbir çərçivəsində "20 Yanvar hüzn və milli qürur günüdür" adlı kitab və Nizami rayon uşaq və gənclər yaradıcılıq mərkəzinin "20 Yanvar uşaqların gözü ilə" adlı rəsm sərgiləri təşkil olunub.

Əvvəlcə 20 Yanvarda vətənin azadlığı uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov çıxış edərək 20 Yanvar faciəsinin Azərbaycan xalqının müstəqillik tarixindəki mühüm rolundan söz açıb, bu qanlı terror aktına hüquqi-siyasi qiymətin verilməsində ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərini xatırladıb.

Diqqətə çatdırılıb ki, 1990-cı il yanvarın 20-də sovet hakimiyyətinin Azərbaycan xalqına qarşı törətdiyi amansız cinayət nəticəsində çoxsaylı vətəndaşlarımız böyük sarsıntılara məruz qalıb. Azərbaycanın ərazi bütövlüyünün pozulmasına qarşı etiraz edən və azadlıq, müstəqillik, suverenlik ideyalarını dəstəkləyən xalqı cəzalandırmaq məqsədilə Bakıya hücum edilib. Təcavüz nəticəsində 147 nəfər mülki şəxs öldürülüb, 321 adam itkin düşüb, 700-dən çox insan yaralanıb.

Bildirilib ki, həmin vaxt qətlə yetirilənlərin içərisində uşaqlar, qadınlar, gənc və yaşlı insanlarla yanaşı, Bakıda yaşayan müxtəlif millətlərin nümayəndələri də olub. Həmin gün xalqımız misli görünməmiş bir faciə yaşayıb. Bu faciə Azərbaycan tarixinə "Qara Yanvar" kimi həkk olunub.

Sonra Mədəniyyət və Turizm Nazirliyinin kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin sektor müdiri Aslan Cəfərov faciə ilə bağlı fikirlərini bölüşərək bildirib ki, bu qanlı gün heç vaxt yaddaşlardan silinməyəcək.

Tədbirdə Nizami rayonunun uşaq və gənclər yaradıcılıq mərkəzi üzvlərinin ifasında 20 Yanvar faciəsinə aid şeirlər səsləndirilib. Sonda qonaqlar sərgi ilə tanış olublar. Sərgidə 20 Yanvar faciəsini özündə əks etdirən müxtəlif kitablar sərgilənib.